# Gənclik bir millətin yaşaması, inkişafı üçün təməl daşıdır




Müəyyən tarixi günlər var ki, onlar gənclərin həyatında əlamətdar rol oynayır. Həmçinin onlarda milli mənlik şüurunun və vətənpərvərlik hisslərinin inkişafına ciddi təkan verir. Bu günlərdən biri də 2 fevral - Gənclər Günüdür. Qeyd edək ki, ölkəmizdə əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasəti mövcuddur və indi həmin siyasət daha qətiyyətlə həyata keçirilir. Ulu öndər Heydər Əliyev gənclərin imkan və bacarıqlarını yüksək qiymətləndirir, onların problemlərinin həlli istiqamətində keçirilən tədbirlərə xüsusi önəm verirdi. Həmçinin bu siyasəti müstəqil Azərbaycan dövlətinin fəaliyyətinin ən mühüm istiqamətlərindən biri kimi dəyərləndirirdi.

Gənclər Günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda qeyd olunub. Bu gün 1997-ci ildə dahi şəxsiyyət Heydər Əliyevin Sərəncamı ilə qeyd olunub. 1996-cı il fevralın 2-də Azərbaycan Respublikası Gənclərinin I Forumu keçirilib. Azərbaycanda Gənclər Günü qeyd olunandan sonra digər MDB ölkələrində və Şərqi Avropa dövlətlərində də bu gün qeyd olunmağa başladı. Dünyada yalnız 1999-cu ildə BMT-nin qərarı ilə avqustun 12-si Gənclər Günü elan edilib.

Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması, müstəqil Azərbaycan gənclərinin ilk Ümumrespublika Forumunun keçirilməsi, 2 fevralın Azərbaycan Gəncləri Günü elan edilməsi, 5 dövlət proqramının qəbulu, “Dövlət gənclər siyasəti haqqında” Fərman və geniş fəaliyyət proqramının təsdiq edilməsi ümummilli lider Heydər Əliyevin gənclərə böyük qayğısının təzahürü idi. Bu, gənclərin respublikanın ictimai-siyasi həyatında daha fəal iştirakına şərait yaradır, habelə dövlət orqanlarının diqqətini gəncliyin problemlərinin həllinə yönəldirdi.

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan uğurlu gənclər siyasəti artıq neçə illərdir ki, Prezident İlham Əliyevin də siyasətinin prioritetlərindən biridir. Prezident hər zaman gənclərin milli ruhda, vətənpərvər və müasir tələblərə cavab verən peşəkar mütəxəssis kimi formalaşmalarına böyük önəm vermişdir. Yanvarın 29-da dövlətimizin başçısı gənclərlə keçirdiyi görüşdə bu fikri bir daha vurğulamışdır: “Mən gənclərin fəaliyyətini yüksək qiymətləndirirəm. Həm beynəlxalq müstəvidə, həm ölkə daxilində mən görürəm ki, bu gün böyüyən gənclər xalqa, dövlətə bağlıdırlar. Bu, çox önəmlidir. Gənclər gərək milli ruhda tərbiyə alsınlar. Biz milli dəyərlərimizi hər şeydən üstün tutmalıyıq. Hətta sovet dövründə dilimizi, adət-ənənələrimizi, bayramlarımızı qorumuşuq”.

Dövlət başçısı İlham Əliyevin gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun təmin edilməsi, dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi məqsədilə 2005-ci il avqustun 30-da imzaladığı “Azərbaycan gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında” Sərəncamı da gənclərə dövlət qayğısının artırılması məqsədinə xidmət edir. Sərəncamda ölkəmizdə gənclərlə bağlı dövlət siyasətinin əsas istiqamətləri açıqlanmışdır. Proqrama uyğun olaraq gənclərin sosial müdafiəsi, məşğulluğunun təmin edilməsi, yaradıcılıq axtarışlarının stimullaşdırılması, milli ruhda təlim-tərbiyəsi, hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, sağlam həyat tərzinin təbliği istiqamətində tədbirlər həyata keçirilmişdir. 2005-2009-cu illərdə gənclər siyasəti üzrə Dövlət Proqramı reallaşdırılmış və bu sənədin 100-dən çox bəndi həyata keçirilmişdir.

Dövlət başçısının Fərmanı ilə Gənclər və İdman Nazirliyi 2006-cı ildə yenidən təşkil edilmiş, gənclər siyasətinin əsas icra orqanı qarşısında yeni vəzifələr qoyulmuşdur. Cənab Prezident İlham Əliyev tərəfindən 2007-ci il ölkədə “Gənclər ili” elan edilmişdir.

Gənclərlə bağlı dövlət siyasətindən danışarkən ölkə başçısının dövlət qurumlarında çalışanlara yaş senzinin tətbiqi ilə əlaqədar Sərəncamı da xüsusi qeyd edilməlidir. Heç şübhəsiz ki, bu qərar gənc kadrların dövlət idarəçiliyinə cəlb edilməsi, onların potensialından daha mükəmməl şəkildə yararlanmağa hesablanmış bir addımdır.

“Azərbaycan gəncliyi 2011-2015-ci illərdə” Dövlət Proqramının icrası gənclərin maraqla gözlədikləri, onların əmək və fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı olan meyarlar sisteminin tətbiqidir. Bu məqama xüsusi diqqət yetirən cənab İlham Əliyev “Prezident mükafatı”nın təsis edilməsi haqqında Fərman imzaladı. Elmin, mədəniyyətin, təhsilin, ədəbiyyat və incəsənətin, ictimai fəaliyyətin inkişafında xüsusi fərqlənən gənclərə “Prezident mükafatı”nın verilməsi gənclər tərəfindən rəğbətlə qarşılandı. Prezidentin bu Fərmanı gənclərə xoş münasibətin, diqqət və qayğının, dövlət gənclər siyasətinin daha bir göstəricisidir.

Bütövlükdə gənclik bir millətin yaşaması, inkişafı üçün təməl daşıdır. Bunun möhkəm olması isə yetişən nəslin sağlam təfəkküründən, düşünmə qabiliyyəti və mübarizliyindən asılıdır. Bütün dövrlərdə millətin adını tarixə yazan sağlam gənc qüvvələr olub. Müasir zəmanəmizin gəncləri çox aktiv və dinamikdir. Hazırda təhsilimizdə, idman sahəsində, tibb, elm, mədəniyyət sahəsində yetərincə aktiv fəaliyyət göstərən dərin biliyə malik gənclər var. Bu gün ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni inkişaf mərhələsini yaşayır. Prezident İlham Əliyev Ulu Öndərin gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatının formalaşması və inkişafı üçün yaradılan şərait böyük diqqətin nəticəsidir.

Gənclər siyasəti çərçivəsində dövlətin idmana qayğısını xüsusilə qeyd etmək lazımdır. Gələcəyə hesablanmış idman siyasəti ölkəmizdə sağlam gənc nəsil və idmançı ordusu formalaşdırıb. Bu gün ölkəmizdə böyük sürətlə kütləviləşən müxtəlif idman növləri gənclərimizi daha böyük qələbələrə ruhlandırır.

Beləliklə, Azərbaycanda gəncliyə dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir, bu siyasət sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Bütün bunlar isə Azərbaycan gəncliyinin sabahına daha böyük inamla baxmağa əsas verir.

**Cavid Əkbərov,**
***“İki sahil”***